## Sabiq əməkdaşımız 100 yaşını qeyd etdi

Mərkəzi Bankın kollektivi Bankın sabiq əməkdaşı Şuşan İxiilovanı 100 illik yubileyi münasibəti ilə təbrik edib.

1914-cü il fevral ayının 5-də əsrlərlə dağ yəhudiləri ilə azərbaycanlıların səmimi, mehriban yaşadığı Quba rayonunun Qırmızı Qəsəbəsində dünyaya gəlmiş Şuşan İxiilova hər kəsə nəsib olmayan 100 illik yubileyini keçirdiyindən sevinc hissi duyduğunu deyib. 1938-ci ildən Bakıda yaşayan İxiilova şəhərin 100 yaşlı sakini olmağı ilə də fəxr edir. 100 illik ömür səhifəsində Mərkəzi Bankda çalışdığı illəri də iftixarla xatırlayan İxiilova, Bankın mehriban kollektivə malik olduğunu qeyd ediərək onu təbrik etdiyinə görə rəhbərliyə və bütün kollektivə

təşəkkürünü bildirib.

İndi 100 yaşlı Şuşan İxilovanın yalnız bir arzusu var o da, torpaqlarımızın azad ediləcəyi günü görmək.